UOT 32

**Rza Talıbov**
*(Bakı Dövlət Universiteti)*

# PAKİSTAN-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ

***Açar sözlər:*** *Azərbaycan, Pakistan, əlaqələr, beynəlxalq münasibətlər, Dağlıq Qarabağ, həmrəylik*

Pakistan Azərbaycanın müstəqilliyini tanıyan (12 dekabr 1991-ci il), onunla diplomatik əlaqələr yaradan (9 iyun 1992-ci il) və Azərbaycanda səfirliyini açan (12 mart 1993-cü il) ilk dövlətlərdən biridir. Lakin Pakistanın Azərbaycanla dost və yaxın münasibətlərinin tarixi daha erkən dövrlərə aiddir.

Məlumdur ki, SSRİ dağılana və Azərbaycan Respublikası öz müstəqilliyini bərpa edənədək Pakistan-Azərbaycan münasibətlərinin əsası daha çox mədəni və məhdud çərçivədə olan iqtisadi əlaqələr səviyyəsində özünü göstərmişdir.

Azərbaycanla Pakistan arasında münasibətlərin yaranması XX əsrin 60-cı illərindən etibarən daha intensiv xarakter ala bilmişdir. Bu zaman mədəniyyət xadimlərinin bir-birilə yaradıcılıq mübadilələrinin yaradılması məqsədilə cəmiyyət, səfər və görüşlərin təşkilinə xüsusi diqqət yetirilirdi. Həmin görüşlər çərçivəsində hər iki tərəf bir-birini tanımağa cəhd etmiş və bu əlaqələrin möhkəmlənməsinə çalışmışdır.

1962-ci ilin oktyabrında M.F.Axundzadənin anadan olmasının 150 illiyi münasibəti ilə keçirilən təntənələrdə görkəmli Pakistan yazıçısı, Beynəlxalq "Lenin" mükafatı laureatı Əhməd Fəna iştirak etmişdir. Elə həmin il SSRİ-yə səfər çərçivəsində Pakistanın Milli Məclisinin sədri Fəzlulla Kadar Çoudrinin rəhbərliyi ilə bir qrup pakistanlı Azərbaycana gəlmiş, Azərbaycan xalqının həyatı ilə yaxından tanış olmuşdur. 1965-ci ilin aprelində görkəmli Pakistan dramaturqu, rejissor və kinooperatoru Henri Çayasenin Bakıya gəlişi Azərbaycanın kino ictimaiyyəti tərəfindən böyük hörmət və ehtiramla qarşılanmışdır. Belə bir görkəmli nümayəndələrdən biri də görkəmli ictimai xadim Mirzə Abel Həsən İspahan olmuşdur. Sonralar o, «Leninqraddan Səmərqəndədək» adlı kitabında Azərbaycan haqqında öz təəssüratlarını qeyd etmişdir.[1]

Bu zaman, Pakistan-Azərbaycan münasibətlərini tənzimləyən, Bakıda Sovet-Pakistan mədəni əlaqə cəmiyyətinin şöbəsi təsis edilir.[2] Həmin illərdə – 1967-ci ilin avqustunda Camiruddin Prodxan başda olmaqla Şərqi Pakistan Qanunvericilik Məclisinin bir qrup nümayəndəsi Bakı və Sumqayıtın mədəni müəssisələrinin fəaliyyəti ilə də yaxından tanış olmuşlar. Pakistanla mədəni əlaqələrin inkişaf etdirilməsində Azərbaycanın elm, təhsil və sənət adamlarının bu ölkəyə turist səfərlərinin təşkili də həyata keçirilmişdir. Həmin illərdə Azərbaycanın tanınmış elm və mədəniyyət xadimləri Aşıq Pənah Pənahov, filologiya elmləri doktoru, professor Fərhad Zeynalov Kəraçi şəhərinə səfər edirlər. Lakin sonrakı illərdə Pakistanla SSRİ arasında yaranan siyasi fikir ayrılığı bu iki ölkə arasında münasibətləri korladığı kimi, Pakistanın Azərbaycanla olan əlaqələrinə də xələl gətirir.

Azərbaycan-Pakistan münasibətlərinin yeni bir mərhələsi isə SSRİ-nin dağılması ilə başlayır. Pakistan SSRİ-nin dağılmasını müsbət qarşılayır və heç bir iddia irəli sürmədən Azərbaycanın və digər müsəlman respublikalarının müstəqilliyini tanıyır.

1991-ci ildə Azərbaycanın suverenliyini tanıyan Pakistan artıq 1992-ci ildə Azərbaycanla siyasi, iqtisadi və mədəni əlaqələrin tarixi şəraitə münasib şəkildə yenidən qurulmasına çalışırdı. Azərbaycanın Qarabağ uğrunda ağır müharibə şəraitində yaşaması beynəlxalq münasibətlərdə Pakistan kimi dövlətlərin simasında mənəvi-si-

---

[1] Manafova M., *Azərbaycanın Şərqi Asiya ölkələri ilə mədəni əlaqələri*, Dərs vəsaiti, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı, 2008, s.11.

[2] Yenə orada .

Əliyev və Pakistan İslam Respublikasının Baş naziri Şövkət Əzizin iştirakı ilə iki ölkə arasında hərbi əməkdaşlıq barədə bir sıra mühüm sənədlərin imzalanması mərasimi də keçirilmişdir.

2006-ci ilin may ayının 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının Baş naziri Şövkət Əzizlə görüşdə qarşılıqlı iqtisadi əməkdaşlığın genişləndirilməsi, elm və texnologiyalar sahəsində əməkdaşlığın zəruriliyi, regional əməkdaşlıq, təhlükəsizlik, iqtisadi əməkdaşlıq, bölgədəki vəziyyət barədə geniş fikir mübadiləsi aparılmış, neft və qaz sahəsində Azərbaycan təcrübəsinin Pakistan üçün əhəmiyyəti haqqında söhbət açılmışdır.

2006-cı ildə keçirilən digər əlamətdar hadisələrdən biri Pakistan Senatının İnsan hüquqları daimi Komitəsinin sədri, senator Seyid Məhəmməd Zəfərin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri oldu. Mayın 6-da senator Seyid Məhəmməd Zəfər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "Ən yaxşı idarəolunan müsəlman dövləti" mükafatını təqdim etdi.[1]

2007-ci ilin mayın 15-də Pakistanın paytaxtı İslamabadda İslam Konfransı Təşkilatı (İKT-indiki İƏT) Xarici İşlər Nazirləri Şurasının "Sülh sessiyası: tərəqqi və harmoniya" başlığı altında 34-cü sessiyası işə başlamışdır. Sessiyanın açılışında İKT Xarici İşlər Nazirləri Şurasına sədrlik Azərbaycandan Pakistana keçmişdir. Sessiyada Azərbaycan tərəfi qurumun Müsəlman Ölkələri Təşkilatı (Organization of Muslim Countries) kimi adlandırılmasını təklif etmişdir. Burada müsəlman ölkələrini narahat edən problemlər, o cümlədən Fələstin məsələsi, Ərəb-İsrail münaqişəsi, İraq, Somali və Əfqanıstandakı vəziyyət, üzv ölkələr arasında iqtisadi, elm və təhsil, informasiya texnologiyaları, səhiyyə, mədəniyyət və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunmuşdur.

2012-ci ildə Bakıda Prezident İlham Əliyevin və Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdarinin görüşü iki ölkə arasındakı münasibətləri daha da istiləşdirmişdir. Bu görüşdə İqtisadi Əməkdaşlıq Təşkilatının Bakıda keçirilən XII Zirvə Toplantısının region ölkələri arasında əməkdaşlığın bundan sonra da inkişafına töhfə verəcəyinə əminlik bildirilmiş, ikitərəfli münasibətlərimizin uğurlu inkişafından məmnunluq ifadə edilmiş, əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu və bu istiqamətdə birgə fəaliyyətin zəruriliyi vurğulanmışdır.[2]

11-14 mart 2015-ci il tarixlərində Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər zamanı ona M.Hüseynə Bakı Dövlət Universitetinin Fəxri Doktoru adı verilmişdir.

30 noyabr 2017-ci ildə Bakıda Azərbaycan-Türkiyə-Pakistan Xarici İşlər Nazirlərinin üçtərəfli görüşü keçirilmişdir. Görüşdə regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Pakistan Azərbaycanın hərbi tərəfdaşlarından biridir. 2018-ci ilin yanvar ayının 18-də Bakıda Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Pakistan İslam Respublikası Birləşmiş Qərargahı arasında Azərbaycan-Pakistan işçi qrupunun 8-ci görüşü keçirilib. Görüşdə hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, regionda təhlükəsizlik, hər iki dövlətin orduları arasında münasibətlərin və əlaqələrinin möhkəmləndirilməsi, o cümlədən 2018-ci ildə birgə tədbirlərin keçirilməsi məsələləri müzakirə olundu. Görüşün sonunda tərəflər işçi qrupun nəticələrinə əsasən protokol imzaladı.

2018-ci ilin sentyabr ayının 25-27 tarixlərində Bakıda keçirilən 3-cü "ADEX 2018" Azərbaycan Beynəlxalq Müdafiə sərgisində dünyanın müxtəlif ölkərindən Azərbaycana gələn nümayəndələri içində Pakistan nümayəndələri də iştirak etdilər.

Sərginin keçirilmə zamanı Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik **Zakir Həsənov** Pakistan İslam Respublikası Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsi sədrinin müavini, general-leytenant **Malik Zəfər İqbal**ın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirdi.

2019-cu ilin mart ayının 22-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Pakistan İslam Respublikasının müdafiə naziri Pervez Xattaq arasında görüş keçirildi. Görüşdə Azərbaycanla Pakistan arasında tarixən dostluq münasibətlərinin mövcud olması, müxtəlif sahələrdə münasibətlərin genişlənməsi və gücləndiyi, eləcə də iki ölkənin hərbi sahədə əməkdaşlığının böyük potensialının olduğunu qeyd edilib, regiondakı hərbi-siyasi vəziyyətin durumu, Dağlıq Qarabağ münaqişəsi və hər iki ölkənin beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini qeyd edildi. Martın 23-ü Pakistan İslam Respublikasında rəsmi səfərdə olan Azərbaycan respublikasının Müdafiə Nazirliyinin nümayəndə heyəti Pakistanın "Milli Günü"nə həsr olunmuş hərbi paradı izləyib, hərbi paradda iştirak etdilər.

Belə ki, Pakistan rəsmiləri Azərbaycanla hərbi əməkdaşlıq etməkdə maraqlı olduqlarını nümayiş etdirməkdən çəkinməmişlər. Bu mənada, Pakistanın Azərbaycanın Qarabağ uğrunda mücadiləsini dəstəkləməsi, onun ölkəmizin ərazi bütövlüyü naminə Ermənistanla diplomatik münasibətlərdən imtina etməsi tarixi əhəmiyyətə malikdir.

Bu illər ərzində Pakistanla Azərbaycan arasında sıx parlamentlərarası münasibətlər də formalaşmışdır. 2013-cü ilin 11-12 fevral tarixində Milli Məclisin sədri Oqtay Əsədov Pakistana işgüzar səfər etmişdir (İqtisadi Əməkdaşlıq Təşkilatının Parlamentlərarası Assambleyasının yığıncağı çərçivəsində). Bu zaman Azərbaycan-Pakistan parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılmışdır.

Pakistan parlamentində Xocalı soyqırımı tanınır. 1 fevral 2012-ci ildə Pakistan Senatının Beynəlxalq Münasibətlər Komitəsi Azərbaycan Respublikasının Xocalı şəhərində baş vermiş hadisələri soyqırım kimi tanımışdır.

Xocalı soyqırımı ilə bağlı növbəti qətnamə 2 fevral 2017-ci il tarixində Pakistan İslam Respublikasının Milli Assambleyasının xarici əlaqələr üzrə daimi komitəsinin 32-ci iclasında qəbul etmişdir. Qətnamədə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı və 1992-ci ilin 26 fevral tarixində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Xocalı şəhərində mülki əhaliyə qarşı törədilmiş soyqırımı pislənilir.

İki ölkə arasında parlmetlərarası əlaqələr inkişaf etməkdədir. Belə ki, 2019-cu ilin sentyabr ayının 6 Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini Ziyafət Əsgərov Pakistan İslam Respublikasının Xeybər Paxtunxva Əyalət Assambleyasının Sədri Müştaq Əhməd Qaninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirib. Görüş zamanı Dağlıq Qarabağ və Kəşmir məsələləri barədə fikir mübadiləsi və parlamentlərarası əlaqələrin inkişafı məsələləri müzakirə edilib[1].

*Onu da qeyd etmək lazımdır ki, Pakistan Qambriya, Cibuti, Mərakeş, Türkiyə, Səudiyyə Ərəbistanı və Malayziya ilə birlikdə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində 2016-cı ilin aprel ayında yaranan Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə dair Kontakt Qrupunun üzvüdür.*

*Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında bu vaxta qədər 30 sənəd imzalanmışdır.* Bu sənədlərin çoxluğu da iki qardaş ölkə arasında sıx əməkdaşlığın və hərtərəfli münasibətlərin təzahürü hesab olunmalıdır.

Qarşılıqlı münasibətlərin iyirmi beş illik tarixində Pakistanla Azərbaycan arasında geniş mədəni əlaqələr qurulmuşdur. Pakistanın elm, təhsil və mədəni ictimaiyyətinin Azərbaycana maraqları güclü olaraq qalır. Hazırda Bakı Dövlət Universitetində urdu dili bölümünün fəaliyyət göstərməsi böyük əhəmiyyətə malik bir hadisədir. Pakistan xalqı Nizami Gəncəvinin yaradıcılığını yaxından tanıdığı kimi, Azərbaycan xalqı da Pakistanın filosof-şairi Məhəmməd İqbalın fəlsəfəsi ilə tanışdır.

2018-ci ilin sentyabr ayının 20-də Azərbaycan Respublikasının Təhsil naziri Ceyhun Bayramov Pakistan İslam Respublikası Senatının sədri Məhəmməd Sadiq Sencari ilə görüşüb, gələcək inkişaf perspektivləri müzakirə olunub.

Azərbaycanla Pakistan arasında əlaqələri möhkəmlətmək istiqamətində Azərbaycan Milli Elmlər Akademiyasının vitse–prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, Millət vəkili və Elm və Təhsil Komitəsinin sədri akademik İsa Həbibbəylinin rolunu xüsusi olaraq qeyd etmək lazımdır. Məhz akademik İsa Həbibbəylinin təşəbbüsü ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Pakistan mərkəzi açılmışdır.

---

[1] Manafova M., *Azərbaycanın Şərqi Asiya ölkələri ilə mədəni əlaqələri*, Dərs vəsaiti, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı, 2008, s.14.

[2] *İlham Əliyevin və Pakistan Prezidenti Asif Əli Zırdarinin görüşü olmuşdur*
http://www.president.az/articles/6425.





[1] Azərbaycan-Pakistan parlamentlərarası əlaqələri müzakirə olunub, http://www.azerbaijan-news.az/view-173470/azerbaycan-pakistan-parlamentlerarasi-elaqeleri-muzakire-olunub.

Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən Azərbaycan – Asiya ədəbi əlaqələri şöbəsində Pakistan ədəbiyyatı öyrənilir və tədqiq olunur. Pakistan ədəbiyyatı yuxarıda adı çəkilən şöbənin əməkdaşı, filologiya elmləri doktoru, dosent Bəsirə Əzizəliyeva tərəfindən tədqiq edilir.

21 iyun 2019-cu il tarixdə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun və Pakistan Müsəlman Dünyası İnstitutunun birgə təşkilatçılığı ilə "Azərbaycan-Pakistan ədəbi-mədəni əlaqələri" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir. Tədbiri AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli açaraq iki ölkə arasında dostluq, qardaşlıq münasibətlərinin olduğunu, siyasi, iqtisadi, elmi, mədəni, hərbi və digər sahələrdə sıx əməkdaşlıq edildiyini bildirmişdir. Nitqində o xüsusi ilə qeyd edib ki, Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən olub, o cümlədən Dağlıq Qarabağ məsələsində ölkəmizin haqlı mübarizəsinə daim dəstək verib. Müsəlman Dünyası İnstitutunun direktoru Sahibzade Sultan Ahmad Ali isə öz növbəsində Ədəbiyyat İnstitutunda Pakistanın görkəmli şairi Məhəmməd İqballa bağlı aparılan tədqiqat işlərini yüksək qiymətləndirib, qonaqpərvərliyə görə, öz minnətdarlığını bildirib.

Konfransda həmçinin bir sıra məruzələr dinlənilib. Konfrans çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Pakistan Müsəlman Dünyası İnstitutu arasında akademik və tədqiqatlar üzrə Anlaşma Memorandumu imzalanmışdır.

Dəqiq elmlər sahəsində də iki ölkə arasında əməkdaşlıq getdikcə genişlənməkdədir. Belə ki, 2018-ci ilin sentyabr ayının 19 Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin ekspertləri, Pakistan Atom Enerji Komitəsinin "Kənd Təsərrüfatı və biologiya üzrə Nüvə İnstitutu"nun əməkdaşları dr. Xalid Mahmud və dr. Sajjad Haydar Azərbaycan Milli Elmlər Akademiyasının Radiasiya Problemləri İnstitutunda olmuşlar. İnstitutun elmi işlər üzrə direktor müavini Rəvan Mehdiyeva pakistanlı qonaqları institutun elmi-tədqiqat istiqamətləri, institutda fəaliyyət göstərən laboratoriyalar ilə tanış etdi. Dr. Xalid Mahmood Pakistan Kənd Təsərrüfatı və biologiya üzrə Nüvə İnstitutunun elmi-tədqiqat istiqamətləri, institutda yerinə yetirilən layihələr, proqramlar haqda məruzə ilə çıxış etdi.

Mədəniyyət sahəsinə toxunarkən qeyd etmək lazımdır ki, 10 aprel 1996-cı ildə Gəncə və Multan arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında birgə Bəyannamə imzalanmışdır. 2004-cü ildə Pakistanın İslamabad şəhərində "Görkəmli Azərbaycan mütəfəkkiri Cəlil Məmmədquluzadə əsərləri" adlı kitab ingilis və urdu dillərində nəşr edilmişdir.

İki ölkə arasında iqtisadiyyat sahəsində də əlaqələr getdikcə inkişaf edir. Belə ki, 2018-ci ilin iyul ayının 4 Bakıda Azərbaycan-Pakistan biznes forumu keçirilmişdir. Forumda Azərbaycanla Pakistan arasında ticarət dövriyyəsi getdikcə artması, ticarət münasibətlərinin daha da inkişaf etdirilməsi üçün işçi qrupu yaradılmışdır.

Ölkələr arasında növbəti biznes forum 6 dekabr 2019-cu il tarixində keçirilmişdir. Forumu Azərbaycanda investisiyaların və ixracın təşviqi fondu, Pakistanın Sərhəd Ticarət və sənaye palatası və Pakistanın Azərbaycandakı səfirliyi təşkil etmişdirlər. Tədbirdə rəsmi şəxslərlə yanaşı hər iki tərəfdən kənd təsərrüfatı, qida sənayesi, əczaçılıq, turizm, tekstil, kimya sənayesi və digər sahələri təmsil edən 150-ə yaxın sahibkar iştirak etmişdir. Forumun əsas məqsədi iki ölkə arasında iqtisadi əlaqələri yüksək səviyyəyə çatdırmaqdan ibarət idi[1].

Diplomatik əlaqələrə qayıdarkən qeyd etmək lazımdır ki, 2018-ci ilin sentyabr ayının 20 Azərbaycan Respublikasının Baş naziri ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikası Senatının sədri ilə görüşüb. Görüş zamanı Azərbaycan-Pakistan münasibətləri, xalqlarımız arasındakı əlaqələr, ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması, sərmayə qoyuluşu imkanları və digər məsələlər müzakirə olundu.

2018-ci ilin noyabr ayının 1 Azərbaycan Respublikasının Milli Məclisinin sədr müavini, parlamentin insan hüquqları komitəsinin sədri Bahar Muradova ölkəmizdə səfərdə olan Pakistanın Federal Ombudsmanı, Asiya Ombudsmanlar Assosiasiyasının prezidenti Syed Tahir Şahbaz və icraçı katibi Abdul Xaliq ilə görüşüb.

[1] *Pakistan Azərbaycan biznes forumu keçirildi - Qarşılıqlı əlaqələr müzakirə edildi* http://atv.az/news/economy/115482-pakistan-azerbaycan-biznes-forum-kecirildi-qarsiliqli-elaqeler-muzakire-edildi





Pakistan ictimaiyyəti Azərbaycanda baş verən tarixi və siyasi hadisələrə həssaslıqla yanaşır. Qarşılıqlı marağın bariz nümunələrindən biri kimi 2013-cü ildə Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar Pakistanda keçirilən silsilə tədbirlər çərçivəsində bu ölkənin Milli Kitabxanasında "Heydər Əliyev Azərbaycan xalqının Ümummilli lideri və Azərbaycan-Pakistan münasibətləri" mövzusunda seminarı və Heydər Əliyev otağının açılış mərasimini göstərmək olar. Burada çıxış edən Kayde Azam Universitetinin siyasət və beynəlxalq əlaqələr üzrə direktoru və professor Lubna Abid Ali Heydər Əliyevin Pakistan-Azərbaycan münasibətlərinin inkişafına verdiyi töhfələrdən danışmışdılar.[1]

Pakistanla Azərbaycan bir-biri ilə humanitar sahələrdə də əməkdaşlıq edir. Qeyd etdiyimiz kimi, Pakistan Qarabağ münaqişəsinin ilk illərindən ölkəmizə müxtəlif səviyyəli humanitar yardımlar etmişdir. Humanitar yardımlar ikitərəfli şəkildə həyata keçirilməkdədir. Məsələn, 2007-ci ildə Pakistanda baş verən dəhşətli zəlzələ və daşqınlar zamanı Azərbaycan Pakistana yardım göstərmişdir. Belə ki, zəlzələdən dərhal sonra Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycandan 40 həkim, xeyli dərman, avadanlıq və təlim keçmiş xilasedici dəstə Pakistana göndərilmişdir.

2010 və 2011-ci illərdə Pakistanda baş vermiş sel fəlakətinin nəticələrinin aradan qaldırılması, daşqından əziyyət çəkmiş insanlara Azərbaycandan yardım göndərilmişdir.

Qeyd etmək lazımdır ki, iki ölkə arasında humanitar sahədə əlaqələrin inkişafında Heydər Əliyev Fondunun xüsusi rolu vardır. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın başçılığı ilə Heydər Əliyev Fondu Pakistanın zəlzələdən dağılmış Müzəffərabad şəhərinin Rara qəsəbəsində müasir orta məktəb inşa etdirmişdir.[2] Rara sakinləri həmin məktəbə ölkəmizin birinci xanımı Mehriban Əliyevanın adını verməklə öz minnətdarlığını bildirmişlər. Minnətdarlıq əlaməti olaraq, Pakistan ictimaiyyəti tərəfindən 2012-ci ildə Mehriban Əliyevaya 2012-ci ilin "Humanizm rəmzi – Dünya miqyasında apardığı xeyirxah fəaliyyətinə, bəşəriyyətin ülvi ideyalarına xidmətinə görə" qadın mükafatı təqdim edilmişdir.[3]

Beləliklə, Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən bu günədək onun ən sadiq tərəfdaşlarından biri də Pakistandır. Əgər müstəqilliyin ilk illərində bu münasibətlərin əsasında Pakistanın Azərbaycanı siyasi, hərbi, humanitar sahələrdə dəstəkləməsi ilə təzahür edirdisə, bu gün həmin münasibətlər qarşılıqlı və bərabərhüquqlu iqtisadi, siyasi, hərbi əməkdaşlığın nümunəsinə çevrilmişdir. Ümummilli lider Heydər Əliyevin başladığı beynəlxalq siyasi kursun davamı kimi müasir Azərbaycan hökuməti Pakistanla hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsində maraqlıdır.

## Ədəbiyyat siyahısı


1. *Azərbaycan - Pakistan münasibətləri,* http://www.mfa.gov.az/files/file/Azerbaycan_Pakistan_munasibetleri_08.08.2014.pdf.
2. *Azərbaycan - Pakistan münasibətləri, Ümumi tarixi arayış,* "Heydər Əliyev irsi" beynəlxalq elektron kitabxana - http://lib.aliyevheritage.org/az/3966579.html.
3. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Pakistan İslam Respublikasına rəsmi səfəri,* 11 aprel 1996-cı il http://lib.aliyevheritage.org/az/41111492.html.
4. Azərbaycan-Pakistan parlamentlərarası əlaqələri müzakirə olunub, http://www.azerbaijan-news.az/view-173470/azerbaycan-pakistan-parlamentlerarasi-elaqeleri-muzakire-olunub.
5. *Heydər Əliyev və Şərq.* Birinci kitab, Bakı, 2002, s.77.
6. *Heydər Əliyev. Müstəqilliyimiz əbədidir,* Qırx ikinci kitab, oktyabr 2002 – noyabr 2002, Azərnəşr, Bakı, 2012, s.27.
7. *Xarici ölkələrdə Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi münasibətilə silsilə tədbirlər keçirilmişdir,* (10 may 2013), "Azər-


[1] *Xarici ölkələrdə Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi münasibətilə silsilə tədbirlər keçirilmişdir,* (10 may 2013), "Azərbaycan" qəzeti, Azərbaycan Respublikası Milli Məclisinin orqanı (23 noyabr 2014, Bazar günü).

*Azərbaycan - Pakistan münasibətləri, Ümumi tarixi arayış,* "Heydər Əliyev irsi" beynəlxalq elektron kitabxana – http://lib.aliyevheritage.org/az/3966579.html.

*Pakistan parlamentinin komitə sədri, Azərbaycan-Pakistan parlamentlərarası dostluq qrupunun üzvü Rubina Saadat Qaimxani ilə görüş,* 15 mart 2013, http://www.heydar-aliyev-foundation.org/az/content/view/52/2461

baycan" qəzeti, Azərbaycan Respublikası Milli Məclisinin orqanı (23 noyabr 2014, Bazar günü).

8. *İlham Əliyevin və Pakistan Prezidenti Asif Əli Zırdarinin görüşü olmuşdur,* http://www.president.az/articles/6425.

9. İsabəyli A., *Pakistan müasir beynəlxalq münasibətlər sistemində*, Bakı, "Bakı Universiteti", 2005, s.132.

10. Manafova M., *Azərbaycanın Şərqi Asiya ölkələri ilə mədəni əlaqələri,* Dərs vəsaiti, Azərbaycan Respublikasi Təhsil Nazirliyi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı, 2008, s.11.

11. Manafova M., *Azərbaycanın Şərqi Asiya ölkələri ilə mədəni əlaqələri,* Dərs vəsaiti, Azərbaycan Respublikasi Təhsil Nazirliyi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı, 2008, s.14.

12. *Pakistan Azərbaycan biznes forumu keçirildi - Qarşılıqlı əlaqələr müzakirə edildi,* http://atv.az/news/economy/115482-pakistan-azerbaycan-biznes-forum-kecirildi-qarsiliqli-elaqeler-muzakire-edildi

13. *Pakistan parlamentinin komitə sədri, Azərbaycan-Pakistan parlamentlərarası dostluq qrupunun üzvü Rubina Saadat Qaimxani ilə görüş*, 15 mart 2013, http://www.heydar-aliyev-foundation.org/az/content/view/52/2461.

14. *Пакистан из-за Азербайджана не признает Армению*, Эхо со ссылкой на АПА., 14-09-2006. № 170 – http://www.mininomer.ru/wudiplokl.

## Резюме

**Рза Талыбов**

### Азербайджанско-пакистанские отношения

В данной статье автор пишет об азербайджанско-пакистанских взаимоотношениях. В советское время взаимоотношения между двумя странами развивались в рамках советско-пакистанских взаимоотношений, с акцентом на развитие и укрепление культурных связей между двумя странами. Однако после приобретения Азербайджаном независимости взаимоотношения между Азербайджаном и Пакистаном стали более интенсивными и охватили сотрудничество в международных организациях, в области политики, культуру, экономики, обороны и тд.

Сегодня Пакистан является одним из стратегических партнеров Азербайджана. Обе страны поддерживают друг друга на международной арене и заинтересованы в дальнейшем развитии и укреплении взаимоотношений.

***Ключевые слова:*** *Азербайджан, Пакистан, отношения, международные отношения, Нагорный Карабах, солидарность.*

## Summary

**Rza Talibov**

### Azerbaijan-Pakistan relations

In this article author writes about Azerbaijan-Pakistan relations. In the Soviet times, relations between the two countries developed within the framework of Soviet-Pakistani relations, with an emphasis on the development and strengthening of cultural relations between two countries. However, after Azerbaijan gained it's independence, relations between Azerbaijan and Pakistan became more intensive and covered cooperation in international organizations, in the fields of politics, culture, economics, defense, etc.

Today, Pakistan is one of the strategic partners of Azerbaijan. Both of the countries support each other in the international arena and are interested in the developing and strengthening the relations with each other in future.

***Keywords:*** *Azerbaijan, Pakistan, relations, international relations, Nagorno-Karabakh, solidarity.*